# XXXII Yay Olimpiya Oyunları davam edir

Olimpiya dünyası
www.olimpiyadunyasi.az
*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*
*№ 25 (1485), 3 - 9 avqust 2021-ci il*
*Qəzet 2001-ci ildən çıxır.*



## Çingiz Hüseynzadə: “İnanıram ki, bu olimpiadada da uğurlu nəticələr göstərə biləcəyik”

Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan idmançılarının Tokio-2020 Yay Olimpiya Oyunlarındakı çıxışı barəsində fikirlərini bildirib. MOK-un vitse-prezidenti Azərbaycan cüdoçusu İrina Kindzerskanın (+78 kq) Tokio-2020 Yay Olimpiya Oyunlarında bürünc medal qazanması barədə bunları deyib: “30 iyul bizim üçün əhəmiyyətli gün idi. İlk medalımızı qazandığımız üçün xoşbəxtik. Bu münasibətlə Azərbaycanın bütün idmansevərlərini təbrik edirəm”.

Çingiz Hüseynzadə qeyd edib ki, Olimpiada Yaponiyada keçirildiyindən, cüdoda medalların əksəriyyətini yerli idmançılar qazanıblar: “Çox təəssüf ki, Azərbaycan cüdoçuları Tokio-2020-də Yaponiya cüdoçuları ilə görüşməli olublar. Təmsilçilərimizin məğlub olduqları idmançılar əsasən yerli tatami ustaları olub. Burada təəccüblü heç nə yoxdur. Yaponiyada cüdo növündə medal qazanmaq elə də asan deyil. Bu baxımdan, İrina Kindzerskanın bürünc medal qazanmasının özü də çox böyük uğurdur. Elə onun çəkisində də Olimpiya çempionu adını yaponiyalı Akira Sone qazandı. Kindzerska isə yarımfinalda məhz həmin rəqibinə uduzdu. Ümumiyyətlə, cüdoçularımızın çoxu çempionlara uduzublar”.

*(ardı 2-ci səhifədə)*

## Tokio-2020-nin bürünc mükafatçısı İrina Kindzerska Bakıya qayıdıb



Tokio-2020 Yay Olimpiya Oyunlarının cüdo yarışlarının bürünc medalçısı İrina Kindzerska Bakıya qayıdıb.

Heydər Əliyev Beynəlxalq Hava Limanında idmançımızı Azərbaycan Cüdo Federasiyasının əməkdaşları, idman ictimaiyyətinin nümayəndələri və cüdoçunun yaxınları qarşılayıblar. İrina Kindzerskaya gül dəstələri təqdim olunub və onunla xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, Tokioya 9 (7 kişi, 2 qadın) cüdoçu ilə yollanan komandamızın heyətində yalnız İrina Kindzerska (+78 kq) mükafatçılar sırasında yer alıb. Xanım cüdoçumuz 1/8 finalda Larisa Tseriçlə (Bosniya və Herseqovina) üz-üzə gəlib. Rəqibinə ipponla qalib gələn İrina növbəti mərhələyə vəsiqə qazanıb. Yarımfinala vəsiqə uğrunda görüşdə cüdoçumuzun rəqibi Cənubi Koreya təmsilçisi Min-Cin Han olub. Bu rəqibini də ipponla üstələyən cüdoçumuz yarımfinala vəsiqə qazanıb. İ.Kindzerska finalın bir addımlığında yaponiyalı Akira Sone ilə qarşılaşıb. Təəssüf ki, idmançımız finala çıxış görüşündə güclü rəqibi ilə mübarizədən məğlub ayrılıb. Lakin cüdoçumuz medal şansını saxlayıb. Belə ki, 30 yaşlı idmançımız bürünc medal uğrunda görüşdə çinli Şiyan Xu ilə üz-üzə gəlib. Həlledici görüşdə rəqibini ipponla məğlub edən İrina Kindzerska Tokio-2020-nin bürünc medalına sahib çıxıb. Bu həm də Azərbaycan yığmasının Tokio Olimpiadasında qazandığı ilk medal olub.

İrina Kindzerskaya qədər isə idmançılarımız arasında ən yaxşı nəticəni Rüstəm Orucov göstərmişdi. 73 kq çəki dərəcəsində yarışan kişi bayraqdarımız Tokio-2020-də 5-ci yeri tutmuşdu.

## Tokio-2020: Bu gün 4 idmançımız medal uğrunda yarışacaq

***Nazim Babayev - üç təkanla tullanma saat: 04:00 Təsnifat***

Rafiq Hüseynov - yunan-Roma güləşi 77 kq saat: 06:00 Təsəlliverici

***Elis Manolova - qadın güləşi 68 kq saat: 06:00 Təsəlliverici***

İslam Abbasov - yunan-Roma güləşi 87 kq saat: 07:00 1/8 final

## Boksçumuz Tokio Olimpiadasının bürünc medalına sahib çıxdı




Azərbaycan komandası Tokio-2020-də növbəti medalını qazanıb. Komandamızın aktivinə ikinci bürünc medalı boksçumuz Alfonso Dominges (81 kq) yazdırıb. Dəri əlcək ustamız olimpiadada ilk görüşündə özbəkistanlı Dilşodbek Ruzmetovla qarşılaşıb. Rəqibinə 4:1 hesabı ilə qalib gələn A.Dominges 1/4 finala vəsiqə əldə edib. Onun bu raunddakı rəqibi türkiyəli Bayram Malkan olub. 26 yaşlı idmançımız türkiyəli rəqibini də üstələyib. Yarımfinala vəsiqə qazanan boksçumuz bu qələbə ilə ən azı bürünc medalı özü üçün təmin edib. İdmançımız medalın əyarını dəyişmək üçün yarımfinalda son Olimpiya çempionu kubalı Arlen Lopeslə qarşılaşıb. Rəqibinə məğlub olan A.Dominges Tokio-2020-nin bürünc medalına sahib çıxıb. İlk raundda 5 hakimdən 4-ü Azərbaycan təmsilçisinin üstün olduğunu bildirib. İkinci hissədə isə 4 referi Lopesin leyhinə qərar çıxarıb. A.Dominges üçüncü raundda noqdauna düşüb və hakimlərin hamısı A.Lopesin üstün olduğu qənaətinə gəlib. Beləliklə, bu, Azərbaycanın Tokio-2020-də qazandığı ikinci bürünc medal olub. Qeyd edək ki, Tokio Olimpiadasına 5 boksçu ilə yollanan komandamızın heyətində yalnız Alfonso Dominges mükafatçılar sırasında yer alıb.

## Çin Tokio-2020-də liderliyi ələ keçirdi

Yaponiyanın paytaxtı Tokioda keçirilən XXXII Yay Olimpiya Oyunları davam edir. Olimpiadanın 11-ci günündən sonra 80 ölkənin təmsilçiləri medal qazanıb. Medal qazanan ölkələrin 57-si çempionluq sevinci yaşayıb. Hesabında 2 bürünc medal olan Azərbaycan millisi isə 73-cü yerdə qərarlaşıb. Millimizə bürünc medalları İrina Kindzerska (+78 kq) və boksçu Alfonso Dominges (81 kq) qazandırıb.

Medal sıralamasında birinci yerə isə aktivində 62 (29 qızıl, 17 gümüş, 16 bürünc) medal olan Çin yığması başçılıq edir. ABŞ millisi 64 (22 qızıl, 25 gümüş, 17 bürünc) medalla ikinci yerdə qərarlaşıb. Ev sahibi Yaponiya millisi isə 33 (17 qızıl, 6 gümüş, 10 bürünc) medalla üçüncüdür.

Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında medal qazanan ölkələr

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Çin | 29 | 17 | 16 | 62 |
| 2. ABŞ | 22 | 25 | 17 | 64 |
| 3. Yaponiya | 17 | 6 | 10 | 33 |
| 4. Avstraliya | 14 | 4 | 15 | 33 |
| 5. Rusiya | 12 | 21 | 17 | 50 |
| 6. B.Britaniya | 11 | 12 | 12 | 35 |
| 7. Fransa | 6 | 10 | 7 | 23 |
| 8. Almaniya | 6 | 6 | 11 | 23 |
| 9. C.Koreya | 6 | 4 | 9 | 19 |
| 10. Niderland | 5 | 7 | 6 | 18 |
| 11.İtaliya | 4 | 9 | 15 | 28 |
| 12. Y. Zelandiya | 4 | 3 | 4 | 11 |
| 13. Çexiya | 4 | 3 | 1 | 8 |
| 14. Kanada | 3 | 4 | 7 | 14 |
| 15. İsveçrə | 3 | 4 | 5 | 12 |

*(ardı 2-ci səhifədə)*




*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



# TOKİO - 2020



## Çingiz Hüseynzadə:
## "İnanıram ki, bu olimpiadada da uğurlu nəticələr göstərə biləcəyik"

(əvvəli 1-ci səhifədə)

Azərbaycan cüdoçularının çıxışını çox da uğursuz saymadığını bildirən MOK rəsmisinin fikrincə, Yaponiyada medal qazanmaq şansı çox az idi: "Bunu biz öncədən də bilirdik. Əsas idman növlərimiz hələ qabaqdadır. İnanıram ki, bu olimpiadada da uğurlu nəticələr göstərə biləcəyik".

Çingiz Hüseynzadə qarşıdakı yarışlar barədə də danışıb: "Növbəti günlərdə digər idmançılarımız da mübarizəyə qoşulacaqlar. Güləşçilərimiz mübarizəyə başlayırlar. Təəssüf ki, cəmi 7 güləşçimiz var, bu tam heyət deyil. Onların 7-si də medal qazanmağa namizəddir. Karateçilərimizin də hər 3-ü medal əldə edə bilər. Gimnastlarımızın da yarışı qabaqdadır.



Ümid edirəm ki, karatedə də, güləşdə də medallar əldə edəcəyik. Yarışlar hələ davam edir. Demək olar ki, olimpiadaların çoxunda biz yarışların ikinci yarısında medallar qazanmağa başlamışıq".

Çingiz Hüseynzadə pandemiya zamanı hazırlaşmağın çox çətin olduğunu bildirib: "Pandemiya zamanı hazırlaşmaq çox çətin idi. Bu səbəbdən idmançıların iradlarını haqlı sayıram. Hazırlıq üçün vaxt, yarışlar çox az olub. Olimpiadaya lisenziya qazanmaq şansları da az oldu. Ağır dövrdür".

## Çin Tokio-2020-də liderliyi ələ keçirdi

(əvvəli 1-ci səhifədə)

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 16. Xorvatiya | 3 | 2 | 2 | 7 |
| 17. Çin Taypeyi | 2 | 4 | 4 | 10 |
| 18. Braziliya | 2 | 3 | 5 | 10 |
| 19. Kuba | 2 | 3 | 3 | 8 |
| 20. Macarıstan | 2 | 2 | 2 | 6 |
| 21. Danimarka | 2 | 1 | 2 | 5 |
| 22. Sloveniya | 2 | 1 | 1 | 4 |
| 23. Ekvador | 2 | 1 | 0 | 3 |
| 24. Yunanıstan | 2 | 0 | 1 | 3 |
| 25. Qətər | 2 | 0 | 0 | 2 |
| 26. Kosovo | 2 | 0 | 0 | 2 |
| 27. Gürcüstan | 1 | 4 | 1 | 6 |
| 28. İspaniya | 1 | 3 | 3 | 7 |
| 29. Venesuela | 1 | 3 | 0 | 4 |
| 30. Rumıniya | 1 | 3 | 0 | 4 |
| 31. İsveç | 1 | 3 | 0 | 4 |
| 32. Hon konq | 1 | 2 | 0 | 3 |
| 33. Slovakiya | 1 | 2 | 0 | 3 |
| 34. CAR | 1 | 2 | 0 | 3 |
| 35. Avstriya | 1 | 1 | 3 | 5 |
| 36. İndoneziya | 1 | 1 | 3 | 5 |
| 37. Serbiya | 1 | 1 | 3 | 5 |
| 38. Yamayka | 1 | 1 | 2 | 4 |
| 39. Belçika | 1 | 1 | 1 | 3 |
| 40. Norveç | 1 | 1 | 1 | 3 |
| 41. Efiopiya | 1 | 1 | 1 | 3 |
| 42. Polşa | 1 | 1 | 0 | 2 |
| 43. Tunis | 1 | 1 | 0 | 2 |
| 44. Türkiyə | 1 | 0 | 4 | 5 |
| 45. İsrail | 1 | 0 | 2 | 3 |
| 46. İrlandiya | 1 | 0 | 2 | 3 |
| 47. Belarus | 1 | 0 | 1 | 2 |
| 48. Özbəkistan | 1 | 0 | 1 | 2 |
| 49. Fici | 1 | 0 | 1 | 2 |
| 50. Estoniya | 1 | 0 | 1 | 2 |
| 51. Bermud ad. | 1 | 0 | 0 | 1 |
| 52. İran | 1 | 0 | 0 | 1 |
| 53. Latviya | 1 | 0 | 0 | 1 |
| 54. Mərakeş | 1 | 0 | 0 | 1 |
| 55. Puerto-Riko | 1 | 0 | 0 | 1 |
| 56. Tailand | 1 | 0 | 0 | 1 |
| 57. Filippin | 1 | 0 | 0 | 1 |
| 58. Dominikan | 0 | 2 | 1 | 3 |
| 59. Kolumbiya | 0 | 2 | 1 | 3 |
| 60. Ukrayna | 0 | 1 | 5 | 6 |
| 61. Monqolustan | 0 | 1 | 2 | 3 |
| 62. Hindistan | 0 | 1 | 1 | 2 |
| 63. Keniya | 0 | 1 | 1 | 2 |
| 64. Portuqaliya | 0 | 1 | 1 | 2 |
| 65. San-Marino | 0 | 1 | 1 | 2 |
| 66. Uqanda | 0 | 1 | 1 | 2 |
| 67. Bolqarıstan | 0 | 1 | 0 | 1 |
| 68. İordaniya | 0 | 1 | 0 | 1 |
| 69. Ş.Makedoniya | 0 | 1 | 0 | 1 |
| 70. Türkmənistan | 0 | 1 | 0 | 1 |
| 71. Qazaxıstan | 0 | 0 | 3 | 3 |
| 72. Meksika | 0 | 0 | 3 | 3 |
| 73. Azərbaycan | 0 | 0 | 2 | 2 |
| 74. Misir | 0 | 0 | 2 | 2 |
| 75. Argentina | 0 | 0 | 1 | 1 |
| 76. Ermənistan | 0 | 0 | 1 | 1 |
| 77. Fil dişi sahili | 0 | 0 | 1 | 1 |
| 78. Küveyt | 0 | 0 | 1 | 1 |
| 79. Malayziya | 0 | 0 | 1 | 1 |
| 80. Finlandiya | 0 | 0 | 1 | 1 |

# XXXII Yay Olimpiya Oyunları davam edir

## Azərbaycan komandasının hesabında iki bürünc medal var

### Badminton

Tokio-2020-nin beşinci günündə Azərbaycan badmintonçusu Edi Reski Dviçayo mübarizəyə başlayıb. L qrupunda yer alan idmançımız vyetnamlı Tyen Min Nquenlə qarşılaşıb. Görüş təmsilçimizin 2:0 hesablı qələbəsi ilə başa çatıb. İlk hissədə 21:14 hesabı ilə qalib gələn badmintonçumuz ikinci hissədə də rəqibinə şans verməyib - 21:18.



Ertəsi gün isə Edi Reski Dviçayo Tokio-2020-də ikinci görüşünü keçirib. İdmançımız ikinci qarşılaşmasında danimarkalı Anders Antonsenlə üz-üzə gəlib. Rəqibinə 0:2 hesabı (16:21; 15:21) ilə məğlub olan E.Dviçayo qrupda qalaraq, Tokio-2020-də mübarizəni dayandırıb.

### Cüdo

Tokio-2020-də cüdo yarışlarının dördüncü günündə Azərbaycan cüdoçusu Murad Fətiyev mübarizəyə başlayıb. 81 kq çəki dərəcəsində çıxış edən idmançımız 1/16 finalda Frederik Harris (Sierra Leone) ilə üz-üzə gəlməli idi. İdmançımızın rəqibi qarşılaşmaya çıxmadığı üçün Murad Fətiyevə texniki qələbə verilib. Cüdoçumuz 1/8 finalda Monqolustan təmsilçisi Səid Mollayi ilə görüşüb. Mübarizənin sonlarında Murad Fətiyev ayağındakı zədə ilə bağlı tibbi yardıma ehtiyac duyub. Əsas vaxtda qalib müəyyənləşməyib. Qızıl xal bölümündə burnundan qan açıldığı üçün azərbaycanlı cüdoçu növbəti dəfə həkimlərə müraciət edib. Görüşü çətinliklə də olsa, davam etdirən Murad vazari xalı ilə uduzaraq, olimpiadada mübarizəni dayandırıb.

* * *

Cüdo yarışlarının növbəti günündə Məmmədəli Mehdiyev Tokio-2020-də mübarizəyə başlayıb. Çəkisi 90 kq olan idmançıların yarışında mübarizə aparan cüdoçumuz 1/16 final mərhələsində İslam Bozbayevlə (Qazaxıstan) üz-üzə gəlib. Qızıl xal bölümündə rəqibinə qalib gələn M.Mehdiyev 1/8 finala vəsiqə qazanıb. O, bu mərhələdə rusiyalı Mixail İqolnikovla qarşılaşıb. Təəssüf ki, bu dəfə rəqibinə vazari xalı ilə məğlub olan Məmmədəli Mehdiyev Tokio-2020 ilə vidalaşıb.

* * *

Tokio Olimpiadasının cüdo yarışlarının altıncı günündə daha bir cüdoçumuz tatami üzərinə çıxıb. Çəkisi 100 kq olan idmançıların yarışında Zelim Kotsoyev mübarizə aparıb. Yarışa 1/16 finaldan başlayan idmançımız 100 kq çəki dərəcəsində ilk görüşünü fransalı Aleksandr İddirə qarşı keçirib. Rəqibinə vazari xalı ilə qalib gələn cüdoçumuz növbəti mərhələdə kanadalı Şadi Elhanasla qarşılaşıb. Təəssüf ki, cüdoçumuz 1/8 finalda rəqibinə məğlub olaraq mübarizəni dayandırıb.



* * *

Cüdo yarışlarının son günündə Uşangi Kokauri (+ 100 kq) və İrina Kinderzska (+78 kq) mübarizəyə başlayıb. 1/16 finalda Polşa təmsilçisi Matsey Sarnaçki ilə üz-üzə gələn U.Kokauri rəqibinə ipponla qalib gəlib. Cüdoçumuz 1/8 finalda braziliyalı Rafael Silva ilə qarşılaşıb. Rəqibinə vazari ilə məğlub olan cüdoçumuz olimpiadanı medalsız başa vurub.

Beləliklə, olimpiadaya 9 (7 kişi, 2 qadın) cüdoçu ilə yollanan millimiz Tokio-2020-ni bir bürünc medalla başa vurub.

İrina Kindzerskaya qədər isə idmançılarımız arasında ən yaxşı nəticəni Rüstəm Orucov göstərmişdi. 73 kq çəki dərəcəsində yarışan kişi bayraqdarımız Tokio-2020-də 5-ci yeri tutmuşdu.

### Atletika

Tokio-2020-nin atletika yarışlarında Azərbaycan təmsilçisi Anna Skidanda gücünü sınayıb. Çəkicatma növündə yarışan atletimiz təsnifat mərhələsində A qrupunda qərarlaşıb. O, 69,57 m nəticə ilə A qrupunda 8-ci olsa da, yekunda finala vəsiqə verən ilk 12-liyə düşə bilməyib. Anna Skidan iki qrupun çıxışından sonra 16-cı yeri tutub və olimpiada ilə vidalaşıb.

### Atıcılıq

Tokio-2020 də Azərbaycanın güllə atıcısı Ruslan Lunyov növbəti çıxışını keçirib. İdmançımız bu dəfə kiçikçaplı tapançadan 25 metr məsafəyə atəşaçmada qüvvəsini sınayıb. O, ilk günün yekununda 281 xal toplayıb. Atletimiz bu göstərici ilə 27 idmançı



arasında 24-cü yeri tutub. İdmançımız ikinci təsnifat mərhələsində isə 286 xal toplayıb. Beləliklə, yekunda 567 xal toplayan R.Lunyov finala yüksəlmək şansını itirib.

Qeyd edək ki, Ruslan Lunyov iyulun 24-də kiçikçaplı tapançadan 10 metr məsafəyə atəşaçma yarışında 20-ci yerlə kifayətlənmişdi.

(ardı 3-cü səhifədə)

# TOKİO - 2020



# XXXII Yay Olimpiya Oyunları davam edir

## Azərbaycan komandasının hesabında iki bürünc medal var



(əvvəli 2-ci səhifədə)

### Boks

Tokio-2020 XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan boksçusu Məhəmməd Abdullayev (+91 kq) növbəti görüşünü keçirib. İkinci görüşünə çıxan boksçumuz 1/8 final qarşılaşmasında dünya və üççat Asiya çempionu özbəkistanlı Baxodir Jalolov ilə qarşılaşıb. İlk raundda 5 hakimin hamısı B.Jalolovun üstün döyüşdüyü qənaətinə gəlib. İkinci raundun sonlarında M.Abdullayev noqdauna düşsə də, görüşü davam etdirib. Bu dəfə də referilər özbəkistanlı boksçuya daha çox xal veriblər. Üçüncü raundda boksçumuz dönüş etmək istəsə də, səyləri bir nəticə verməyib. Beləliklə, üçüncü raundda da B.Jalolova uduzan M.Abdullayev 0:5 hesabı ilə məğlub olaraq Tokio Olimpiadasında mübarizəni dayandırıb.

* * *



Tokio-2020-də ikinci döyüşünü keçirən digər boksçumuz Cavid Çələbiyev də mübarizəni dayandırıb. 63 kq çəki dərəcəsində yarışan boksçumuz 1/8 finalda Ermənistan təmsilçisi, Avropa çempionu və Minsk-2019 II Avropa Oyunlarının qalibi Ovanes Baçkovla üz-üzə gəlib. İlk raundda fəal təsir bağışlayan Cavid Çələbiyev rəqibinə ardıcıl zərbələr endirib. Bunun nəticəsində 29 yaşlı idmançı fasiləyə 4:1 hesablı üstünlüklə çıxıb.

İkinci raundda O.Baçkov vəziyyəti bərabərləşdirməyə çalışıb. Bunun nəticəsində 5 hakimin hamısı onun üstünlüyünü qeydə alıb.

Üçüncü raundda C.Çələbiyev yorğun təsir bağışlayıb. Zərbələrin intensivliyinin azaldığı hissənin qalibi Ermənistan təmsilçisi olub .

Beləliklə, Azərbaycan boksçusu rəqibinə uduzaraq, Tokio-2020 ilə vidalaşıb.

### Güləş

Dünən Tokio-2020-də güləş yarışlarına start verilib. İlk yarış günündə iki güləşçimiz xalça üzərinə çıxıb. Güləşçilərimizdən qadın idmançımız Elis Manolova (68 kq) 1/8 finalda nigeriyalı Blessinq Oborududu ilə qarşılaşıb. E.Manolova rəqibinə 13:2 hesabı ilə



məğlub olub. B.Oborududu finala yüksəldiyi üçün Azərbaycan təmsilçisi təsəlliverici görüşdə iştirak edəcək. O, bu gün bürünc medal qazanmaq üçün əvvəlcə qırğızıstanlı Meerim Jumanazarovanı, daha sonra monqolustanlı Battsetseq Soronzonboldu məğlub etməlidir.

Güləş yarışlarının ilk günündə mübarizə aparan güləşçimiz Rafiq Hüseynov (77 kq) 1/8 finalda isveçli Aleks Kessidislə üz-üzə gəlib. Qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb. R.Hüseynov sonuncu xal prinsipinə əsasən qalib gələrək 1/4 finala vəsiqə qazanıb. O, bu mərhələdə Akjol Mahmudovla (Qırğızıstan) qarşılaşıb. Təəssüf ki, idmançımız bu dəfə rəqibinə 1:9 hesabı ilə məğlub olub. Qırğızıs-



tanlı idmançının finala vəsiqə qazanması Rafiq Hüseynovun bürünc medal üçün təsəlliverici görüşlərdə iştirak etməsinə şərait yaradıb. R.Hüseynov bu gün keçiriləcək təsəlliverici görüşdə tunisli Lamjed Maafi ilə qarşılaşacaq. Avropa çempionu qələbə qazanacağı təqdirdə, bürünc medal qarşılaşmasında ermənistanlı Karapet Çalyanla qarşılaşacaq.

---

***Hər bir idmançı qələbə arzusundadır. Olimpiya Oyunlarının medalını qazanmaq isə daha da arzuolunan və qürurlu andır. Hazırda bütün dünyanın diqqəti Yaponiyaya yönəlib. Planetin ən güclü atletləri Olimpiya mükafatları uğrunda yarışırlar. Dünyanın ən böyük idman bayramında Azərbaycan atletləri də fəxri mükafatlar uğrunda çıxış edirlər. Sevindirici haldır ki, yığma komandamız medal qazanan ölkələr sırasında yer alır. XXXII Yay Olimpiya Oyunlarında Azərbaycanın aktivinə ilk medalı əslən Ukraynadan olan cüdoçumuz İrina Kindzerska yazdırıb. +78 kq çəki dərəcəsində mübarizə aparan legioner idmançımız Tokio-2020-nin bürünc medalına yiyələnib. "Olimpiya dünyası" qəzetinin əməkdaşları İrina Kindzerska ilə əlaqə saxlayaraq, onun sevinc təəssüratlarını öyrənib. Bürünc medalçımızla müsahibəni oxucularımıza təqdim edirik.***



# "Bürünc medal mənim üçün qızıl qədər önəmlidir"

***- İrina, əvvəlcə Sizi Tokio-2020 Yay Olimpiya Oyunlarında əldə etdiyiniz bürünc medal münasibəti ilə təbrik edirik. Olimpiadanın medalını qazanan ilk idmançımız siz oldunuz. Hansı hissləri keçirirsiniz?***

- Təbrikiniz üçün təşəkkür edirəm. Bu medala gedən yol mənim üçün çox uzun və çətin oldu. Bu yolda dəfələrlə yüksəlişlərim və enişlərim, sevinc və kədər göz yaşlarım oldu. Buna görə də, özümü çox xoşbəxt hiss edirəm. Azərbaycan üçün medal qazandığıma görə sevincimin həddi-hüdudu yoxdur. Etiraf edim ki, həmin günü yenidən yaşamaq istərdim.

***- Bürünc mükafat uğrunda döyüşdən əvvəl özünüzü necə ruhlandırır və nə barədə fikirləşirdiniz?***

- Həmin gün mənim üçün çox ağır bir gün idi desəm, yanılmaram. Anlayırdım ki, bütün gücümü sərf edib medal qazanmalıyam. Çünki Olimpiya Oyunları digər yarışlar kimi qısa müddətdə təşkil olunmur. Növbəti dəfə gücümü göstərmək üçün 3 il tələb olunacaq. Bu isə kim bilir mənə qismət olmaya bilər. Buna görə də, özümü, yaxınlarımı, Azərbaycan Milli Olimpiya Komitəsini sevindirmək üçün əlimdən gələni etdim.

***- Maraqlıdır, qələbənizdən sonra ilk olaraq sevincinizi kiminlə bölüşdünüz?***

- Bürünc medalın sahibi olduqdan dərhal sonra sevinc hisslərimi ailəmlə bölüşdüm. Bu qələbəni uzun zaman idi ki, gözləyirdim. Bürünc medal mənim üçün qızıl qədər önəmlidir. Vurğulamaq istərdim ki, qazandığım qələbədə yalnız mənim deyil həmçinin Azərbaycan Cüdo Federasiyasının, ailəmin, doğmalarımın əməyi və dəstəyi əvəzolunmazdır. Buna görə də, mənə inandıqları və güvəndikləri üçün hər kəsə təşəkkürümü bildirirəm.

***- Necə düşünürsünüz, ola bilər ki, sizə qızıl medal qazanmağa bir müddət əvvəl aldığınız zədə səbəb oldu?***

- Bilirsiniz, bu idmandır, burada hər an hər şey ola bilər. Lakin mən bacardığımı etdim. Sevinirəm ki, zədəm bu dəfə mənə mane olmadı. Amma təəssüf ki, birincilik qazanmaq mənə qismət olmadı.

***- Qalib olduğunuz anda göz yaşlarınızı saxlaya bilmədiniz. Həmin anlarda nə düşünürdünüz?***

- Düşünürdüm ki, 9 il yolunu gözlədiyim medal artıq mənimdir. Nəhayət ki, o mənim əlimdədir. Xoşbəxtliyimi sözlə ifadə etmək mümkün deyil. Sevinirəm ki, ilk idmançı olaraq Azərbaycan millisinin aktivinə medal yazdırdım. Əminəm ki, bundan sonra idmançılarımız uğurlu çıxışları ilə seçilib, ölkəmizin bayrağını dalğalandıracaqlar.

***Türkay Niftəliyeva***

---

# Tokio-2020-də tennis yarışları başa çatdı

Tokio Olimpiadasında tennis yarışlarına yekun vurulub. Həm kişilərin, həm də qadınların yarışında favoritlər ümidləri doğrultmayıblar. Yaponiyalı Naomi Osaka mübarizəni səkkizdəbir finalda dayandırmışdısa, kişilərin mübarizəsində Novak Cokoviçin yarımfinalda məğlubiyyəti mərhələnin gözlənilməz nəticəsi olub.

Qadınların yarışında finalda isveçrəli tennisçi Belinda Bençiç çexiyalı Marketa Vondrouşovanı məğlub edib. İlk setdə Bençiç rəqibindən 7:5 hesabı ilə üstün olsa da, növbəti hissədə M.Vondrouşova vəziyyəti xeyrinə dəyişib - 6:2. Həlledici setdə B.Bençiç yenidən təşəbbüsü ələ alıb. O, 6:3 hesabı ilə qalib gələrək Olimpiadanın qızıl medalını qazanıb. Bu, İsveçrənin Olimpiadaların tennis yarışında qazandığı ümumilikdə 5-ci medaldır. Bu mükafatların 3-ü qızıldır. Bunadək Barselona-1992-də fərdi yarışda Mark Rosse, Pekin-2008-də isə Roje Federer və Sten Vavrinka cütlüklərin yarışında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Tokioda kişilərin yarışında isə Aleksandr Zverev çempionluq sevinci yaşayıb. Almaniyalı tennisçi həlledici görüşdə rəqibi Karen Xaçanovu (Rusiya Olimpiya Komitəsi) hər iki setdə məğlub edib - 6:3, 6:1. A.Zverev Şteffi Qraff, Boris Bekker və Mixail Ştixdən sonra Olimpiadada qızıl medal qazanan dördüncü almaniyalı tennisçi kimi tarixə düşüb. Tokioya böyük ümidlərlə gələn ATP reytinqinin lideri Novak Cokoviç üçüncü yer uğrunda görüşdə ispaniyalı Pablo Karrenyo Bustaya məğlub olub.

TOKİO - 2020

# XXXII Yay Olimpiya Oyunlarında yadda qalan anlar




















TOKİO - 2020

# Olimpiya Oyunlarında qeydə alınan rekordlar və maraqlı hadisələr



## Olimpiadalarda Qətərin ilk qızılı

Tokio-2020 Yay Olimpiya Oyunlarında qətərli ağırlıqqaldıran Fares Əl-Bax öz ölkəsinin idman tarixində "ilk"ə imza atıb. Olimpiadalarda Qətərə ilk qızıl medalı qazandıran Fares 96 kq çəkidə iki hərəkətin cəmində Olimpiya rekordçusu oldu - 402 kq.

## ABŞ üzgüçüləri rəqib tanımır

ABŞ üzgüçüsü Keti Ledeki Tokio-2020 Yay Olimpiya Oyunlarında 800 m məsafəyə sərbəst üsulla mübarizədə bütün rəqiblərini qabaqlayıb.



24 yaşlı idmançı 7-ci dəfə Olimpiadanın qızıl mükafatına yiyələnib. Keti medallardan 6-nı fərdi, 1-ni isə estafetdə qazanıb. Amerikalı üzgüçü Olimpiada tarixində ikinci xanım idmançıdır ki, 7 medala sahib çıxır. O, həmkarı Cenni Tompsondan geri qalır. ABŞ-ı təmsil edən həmin idmançı 8 dəfə çempionluq sevinci yaşayıb. Lakin bir fərq var ki, Tompson bütün nailiyyətlərini estafet yarışlarında əldə edib.

## Olimpiadalarda medal qazanan cırtdan ölkə

San Marino yığması Olimpiadalar tarixində ilk medalını qazanıb. Tokio-2020 Yay Olimpiya Oyunlarının stend atıcılığı yarışında Alessandra Perilli üçüncü yeri tutub. Onun səngər növündə əldə etdiyi medal ölkə idmanında yeni bir tarixə



çevrilib. Əhalisi 34 min olan San-Marino Olimpiadalarda medal qazanan ən kiçik ölkə olub. Cırtdan ölkə 1960-cı ildə Romada keçirilən XVII Yay Olimpiya Oyunlarından etibarən böyük idman yarışında təmsil olunur. Qeyd edək ki, San-Marino Tokio-2020-yə 5 idmançı ilə qatılıb.

## 4 qat Olimpiya çempionu Tokioda fərqlənə bilmədi

İdman gimnastikası üzrə dördqat Olimpiya çempionu Simona Beyls Tokio-2020 Yay Olimpiya Oyunlarında fərdi çoxnövçülük yarışlarında



iştirak etməyəcək. Buna idmançının psixoloji problemləri səbəb olub. ABŞ millisinin üzvü komanda yarışlarını da yarımçıq dayandırdıqdan sonra belə qərar verib. O, dayaqla tullanmadan sonra çıxışını başa vurub. Tibbi müayinədən sonra qərara alınıb ki, fərdi çoxnövçülükdə onu Keri Ceyd əvəz edəcək.

## Bermud adalarının da Olimpiya çempionu var

Bermud adaları Olimpiya çempionluğu qazanan ən kiçik ölkə olub. cəmi 63 min əhalisi olan ölkə tarixinin ilk qızıl uğurunu Yaponiya paytaxtında əldə edib. Flora Daffi qadın triatlonçu-



ların yarışında qızıl medala yiyələnib. Bunadək Bermud adaları Olimpiya Oyunlarında yalnız bir bürünc medal qazanıb. Monreal-1976-da adanı təmsil edən boksçu ilk medalı əldə edib.

## Hədəfi 33 ildir dəqiq nişan alan asiyalılar

Tokio-2020 Yay Olimpiya Oyunlarının qadınlar arasında kamandan oxatma yarışını Cənubi Koreya yığması qalib tamamlayıb. Asiyalılar finalda Olimpiya bayrağı altında çıxış edən Qaç-



qınlar komandasına 6:0 hesabı ilə qalib gəlib. Bununla kamandan oxatmada ardıcıl 9-cu qızıl medalına yiyələnən cənubi koreyalı qadınlar 33 ildir olimpiadalarda çempionluğu heç kimə vermirlər. Onlar 1988-ci ildə Seulda təşkil olunan Olimpiadadan etibarən ardıcıl 7 yarışı da qalib bitiriblər. 33 illik ənənəni davam etdirən Asiya komandasının idmançıları fərdi yarışlarda da ilk üç yeri öz aralarında bölüşüblər. Qeyd edək ki, Tokio-2020-də kamandan oxatma növündə kişilərin mübarizəsində və qarışıq yarışlarda da Cənubi Koreya təmsilçiləri qızıl medal əldə edib.

## Yıxılıb finişi keçən atlet

Tokio-2020 Yay Olimpiya Oyunlarında niderlandı təmsil edən efiopiyalı atlet Sifan Hassan 1500 metr məsafəyə qaçışda yarımfinalın qalibi olub.



28 yaşlı idmançı yarış zamanı rəqibi ilə toqquşub və yerə yıxılıb. Lakin Hassan mübarizəyə davam edib və 4 dəqiqə 5,17 saniyəyə finişə birinci çatıb.

## Ciddi zədə uğur qazanmağa mane oldu



Rusiyalı atlet Darya Klişina Tokio-2020 Yay Olimpiya Oyunlarını uğursuz başa vurub. Uzununa tullanmada çıxış edən 30 yaşlı idmançı təsnifat mərhələsində ciddi zədə alıb.

İlk iki cəhdi uğursuz alınan Klişina ayağındakı zədə səbəbindən üçüncü cəhddən imtina edib. Atlet stadionu əlil arabasında tərk etməli olub.

## Vaterpolçular Atletlər Kəndinə spirtli içki keçiriblər

Tokio Olimpiadasının Təşkilat Komitəsi Atletlər Kəndində vaterpolçular tərəfindən spirtli



içkinin qəbulu ilə bağlı məsələni araşdırır. Bu barədə jurnalistlərə bazar günü Oyunların Təşkilat Komitəsinin baş direktoru Toşiro Muto məlumat verib. Baş direktor deyib ki, iyulun 31-də Atletlər Kəndində vaterpolçular tərəfindən spirtli içki qəbulu ilə bağlı hadisə baş verib. Bununla əlaqədar müvafiq araşdırma aparılır. Qeyd



edək ki, bu ərəfədə Oyunların Təşkilat Komitəsi ərazini icazəsiz tərk edərək Tokionu gəzməyə çıxan iki gürcü cüdoçunun akkreditasiyasını ləğv edib.

Xatırladaq ki, XXXII Yay Olimpiya Oyunları avqustun 8-də başa çatacaq.

## Belaruslu idmançı deportasiya edildi

Belaruslu atlet Kristina Timanovskaya Yaponiyadan deportasiya edilib. Bu barədə Belarus İdman Həmrəyliyi Fondu məlumat yayıb. İd-



mançının hansı səbəbdən Oyunları tərk etməsi barəsində isə məlumat verilmir. Məlumat üçün bildirək ki, Kristina Tokio-2020 Yay Olimpiya Oyunlarında 200 m məsafəyə qaçışda öz ölkəsini təmsil etməli idi.

## *Samir Abasov: “Bilirik ki, getdikcə oyunlar çətinləşir”*

Çox maraqlı rəqibə qarşı oynayacağıq. Finlandiyada çempionat davam etdiyi üçün Tbilisi “Dinamo”su kimi, HİK-in də futbolçularının fiziki vəziyyəti çox yaxşıdır.

Bunu UEFA Avropa Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində “Bakcell Arena”da Finlandiyanın HİK komandasını qəbul edəcək Bakının “Neftçi” klubunun baş məşqçisi avqustun 2-də təşkil olunan mətbuat konfransında deyib.

Mütəxəssis bildirib ki, HİK Finlandiya çempionudur və təhlükəli rəqibdir. Finlandiya futbolu irəli doğru addımlayır. Millilərinin “Avro-2020”dəki çıxışı bunu deməyə əsas verir. Rəqibin bəzi üstünlükləri var. Bəlkə də bizdən daha hazırlıqlıdır. Ən azı əlimizdən gələni etməliyik ki, bu turnirdə qalaq. HİK-in xeyli oyununa baxmışam. Məsələn, srağagün çempionat matçına çıxdılar. Kifayət qədər zəngin heyətə malikdir. “Malmö”yə bir oyunda uduzmalarına və bir heç-heçə etmələrinə baxmayaraq, xoşagələn, hərəkətli oyun göstərirlər. Bizim də əhvalımız pis deyil. “Olimpiakos”a uduzsaq da, motivasiyamız qaydasındadır. Bəzi məqamlar bizi üzdü. Ancaq əhval-ruhiyyəmizi düzəldə bilmişik. Bilirik ki, getdikcə oyunlar çətinləşir.

“Neftçi”nin kapitanı Emin Mahmudov deyib: “HİK fiziki cəhətdən çox hazırlıqlı komandadır. Bununla belə, nəzərə alaq ki, öz meydanımızda oynayacağıq. Baş məşqçinin tapşırıqlarını sabah yerinə yetirməyə və qələbə qazanmağa çalışacağıq”.

## *“Neftçi” ilk görüşdə “Qəbələ”ni sınağa çəkəcək*

Azərbaycan Premyer Liqasında 2021/2022 mövsümünün püşkü atılıb. Avqustun 14-də başlayacaq yeni mövsümün ilk turunda qarşılaşacaq komandalar müəyyənləşib. 8 komndanın ilk turda görüşləri aşağıdakı kimi olacaq.

**14 avqust**

Azərbaycan Premyer Liqası, 2021/2022 mövsümü
1-ci tur, 14-15 avqust

“Zirə” - “Qarabağ”
“Neftçi” - “Qəbələ”
“Keşlə” - “Sumqayıt”
“Sabah” - “Səbail”

## *Azərbaycan Cüdo Federasiyasının iclası keçirilib*

Avqustun 2-də Azərbaycan Cüdo Federasiyasında (ACF) vitse-prezident Sadıq Sadıqovun rəhbərliyi ilə iclas keçirilib.

Federasiyadan verilən məlumata görə, iclasda ACF-nin baş katibi Elmar Babanlı, daimi fəaliyyət komissiyasının sədri Ağayar Axundzadə, baş katibin müavini Elnur Əşrəfoğlu, əsas və gənclərdən ibarət milli komandaların aparıcı cüdoçuları iştirak ediblər.

İclasda kişilərdən ibarət cüdo millimizin Tokio Olimpiadasındakı uğursuz çıxışı ilə əlaqədar millimizin məşqçilər heyəti bütünlüklə istefaya göndərilib. Belə ki, ukraynalı baş məşqçi Ruslan Maşurenko başda olmaqla onun bütün köməkçiləri komandadan göndərilib.

Həmçinin yüksək əməkhaqqı alan cüdoçuların maaşlarının onların son bir ildə nüfuzlu beynəlxalq yarışlardakı nəticələrinə uyğun qaydada ödəniləcəyi barədə qərar qəbul olunub. Kişilərdən ibarət cüdo üzrə milli komandanı çalışdırmaq müvəqqəti olaraq gənclərdən ibarət yığmanın baş məşqçisi Elçin İsmayılova tapşırılıb.

## Klublarımızın potensial rəqibləri müəyyənləşdi



UEFA Avropa Liqasında pley-off mərhələsinin püşkü atılıb. Turnirdə Azərbaycanın yeganə təmsilçisi olan “Neftçi”nin də potensial rəqibi müəyyənləşib. “Ağ-qaralar” III təsnifat mərhələsində Finlandiya HİK-ini mübarizədən kənarlaşdıracağı təqdirdə, növbəti raundda Türkiyənin “Fənərbağça” komandası ilə qarşılaşacaq. Flaqman ilk matçını səfərdə keçirəcək.

Qeyd edək ki, pley-off mərhələsinin oyunları avqustun 19-da və 26-da təşkil olunacaq.

* * *

UEFA Konfrans Liqasında pley-off mərhələsinin püşkü atılıb. Azərbaycanın avrokuboklardakı təmsilçiləri “Neftçi” və “Qarabağ”ın da potensial rəqibləri müəyyənləşib. “Neftçi”



Avropa Liqasının III raundunda Finlandiya HİK-ini keçə bilməsə, Konfrans Liqasının pley-offunda “Makkabi” (Hayfa, İsrail) - “HB Torşavn” (Farer adaları) cütünün qalibi ilə qarşılaşacaq. Paytaxt təmsilçisi ilk matçını Bakıda keçirəcək.

* * *



“Qarabağ” klubu isə III raundda Kipr AEL-ini üstələyəcəyi təqdirdə, növbəti mərhələdə “Breydablik” (İslandiya) - “Aberdin” (Şotlandiya) cütünün qalibi ilə üz-üzə gələcək. “Köhlən atlar”ın ilk görüşü Bakıda olacaq.

Qeyd edək ki, pley-off mərhələsinin oyunları avqustun 19 və 26-da keçiriləcək.

## *Çempionlar Liqasında pley-off mərhələsinin püşkü atıldı*

UEFA Çempionlar Liqasının pley-off mərhələsinin püşkü atılıb. Püşkatma nəticəsində Azərbaycan millisinin hücumçusu Mahir Emrelinin çıxış etdiyi Polşanın “Legiya” komandasının da potensial rəqibi müəyyənləşib. Varşava təmsilçisi III təsnifat mərhələsində Xorvatiyanın “Dinamo” (Zaqreb) klubunu keçəcəyi halda, növbəti raundda “Srvena Zvezda” (Serbiya) - “Şerif” (Moldova) cütünün qalibi ilə qarşılaşacaq. Polşalılar ilk oyunu səfərdə keçirəcəklər.

**Pley-off cütlükləri bunlardır:**

**Çempionlar yolu**

“Zalsburq” (Avstriya) - “Bröndbü” (Danimarka)

ÇFR (Rumıniya) / “Yanq Boyz” (İsveçrə) cütünün qalibi - “Ferentsvaroş” (Macarıstan) / “Slaviya” (Praqa, Çexiya) cütünün qalibi

“Malmö” (İsveç) / “Reyncers” (Şotlandiya) cütünün qalibi - “Olimpiakos” (Yunanıstan) / “Lüdoqorets” (Bolqarıstan) cütünün qalibi

“Srvena Zvezda” (Serbiya) / “Şerif” (Moldova) cütünün qalibi - “Dinamo” (Zaqreb, Xorvatiya) / “Legiya” (Polşa) cütünün qalibi

**Liqa yolu**

“Monako” (Fransa) / “Sparta” (Praqa, Çexiya) cütünün qalibi - “Genk” (Belçika) / “Şaxtyor” (Donetsk, Ukrayna) cütünün qalibi

“Spartak” (Moskva, Rusiya) / “Benfika” (Portuqaliya) - PSV (Niderland) / “Midtüllan” (Danimarka) cütünün qalibi

## Yeni mövsümdə 8 komanda yarışacaq

Azərbaycan Futzal Federasiyasının iclası keçirilib. Toplantıda Yüksək Liqanın 2021-2022-ci il mövsümünə hazırlıq işləri müzakirə olunub. Yeni mövsümdə 8 komandanın iştirak edəcəyi qərara alınıb. Onlardan 5-i ötən çempionatda da gücünü sınayıb. Daha 2 klub isə debütantdır və biri - “Alyans” Lənkəranı təmsil edir. Federasiya gənc futzalçıların inkişafı və təcrübə toplaması, eləcə də qarşıdan gələn Avropa çempionatına daha yaxşı hazırlaşması məqsədi ilə 19 yaşadək futzalçılardan ibarət Azərbaycan millisinin də Yüksək Liqada iştirakına icazə verib.

Beləliklə, Yüksək Liqanın 2021-2022-ci il mövsümündə “Araz-Naxçıvan”, “Neftçi”, EKOL, “Rekord”, “Alyans”, “Baku Fire”, “Xilə” və U-19 komandaları iştirak edəcəklər.

Qeyd edək ki, çempionat 3 dövrədən və pley-off mərhələsindən ibarət olacaq. İlk 4 pillədə yer alacaq komandalar (1-4, 2-3) qalibi müəyyənləşdirəcəklər. Yeni mövsümə sentyabrda start veriləcək.

## “Kür” “Könüllülər kuboku” turnirinin qalibi oldu

Salyanda mini futbol üzrə respublika “Könüllülər kuboku” turnirinin rayon mərhələsi keçirilib. Gərgin idman mübarizəsi ilə yadda qalan yarışın yekun nəticələrinə əsasən, “Kür” komandası birinci olub. “Zəfər” komandası yarışı ikinci, “Aran” isə üçüncü pillədə başa vurub.

Mükafatçılar diplomlar ilə təltif olunublar.

## Voleybolçularımız Macarıstanda yarışacaqlar

Voleybolçu qadınlardan ibarət Azərbaycan milli komandası Macarıstanda beynəlxalq “Savaria” turnirində mübarizə aparacaq.



Azərbaycan Voleybol Federasiyasından verilən məlumata görə, avqustun 5-də start götürəcək yarışda rəqiblər ev sahibləri, Niderland və Çexiya yığmaları olacaq. Vüqar Əliyevin baş məşqçi olduğu yığmamız bu komandalarla üç gün ərzində ardıcıl olaraq, üzüzə gələcək. Turnir dairəvi sistemlə keçiriləcək.

Qeyd edək ki, Azərbaycan millisi Avropa çempionatının final mərhələsinə hazırlıq məqsədilə daha əvvəl Yunanıstanda təlim-məşq toplanışında olub. Komanda üzvləri məşqlərlə bərabər yerli yığma ilə 3 yoxlama oyunu da keçirib və 1 qarşılaşmada qalib olub.

## *Şahmatçılarımızın mövqeyi dəyişmədi*

Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq siyahısını açıqlayıb. İlk “10-luq”da Azərbaycanın 2 təmsilçisi yer alıb.



Şəhriyar Məmmədyarov 2782 xalla 6-cı, Teymur Rəcəbov isə 2 763 xalla 10-cu yerdəki mövqeyini qoruyub.

Qədir Hüseynov (2665) 72-ci sırada qalıb. 3 pillə geriləyən Nicat Abbasov (2656) isə 87-ci-sıraya enib. 4 addım geriləyən Rauf Məmmədov (2 654) 91-ci pillədə yer alıb.

Siyahıda ilk “üçlük” dəyişməyib. Norveçli dünya çempionu Maqnus Karlsen (2847) birinci, Fabiano Karuana (ABŞ, 2806) ikinci, Dinq Liren (Çin, 2799) üçüncüdür.

Qadın şahmatçılardan Günay Məmmədzadə 2460 xalla 26-cı pillədə qərarlaşıb. Gülnar Məmmədova (2385) 77-ci, Xanım Balacayeva (2376) isə 91-cidir.

Futbol



Mobil İSMAYILOV

(Əvvəli qəzetimizin 24-cü sayında)

# Anti-futbol söhbətləri

### Futbola kölgə salan ən xoşagəlməz proseslər

Azarkeşlərə, futbol mütəxəssislərinə sirr deyildir ki, getdikcə danışılmış oyunlar daha da artır. Ümumiyyətlə, futbolun görünməyən bu tərəfləri həmişə anti-futbol söhbətlərinin başlıca hissəsini təşkil etmişdir. Hələ 1974-cü ildə keçirilən dünya çempionatında maraqlı bir hadisəyə rast gəldik. O vaxtkı mundial guya bir-birinə düşmən olan Qərbi Almaniya və Almaniya Demokratik Respublikası ölkələrinin qrup mərhələsindəki görüşü ilə tarixə düşdü. Xatirinizdədirsə, meydan sahibləri olan AFR ADR-ə 0:1 hesabı ilə uduzdu. Ona görə məğlub oldu ki, "düşmən" ölkənin komandası da növbəti mərhələyə çıxa bilsin.

Rusiya mətbuatını müntəzəm və daha çox izlədiyimə görə həmin ölkədə baş verən anti-futbol söhbətlərinə tez-tez rast gəlirəm. 2010-cu ildə rus idman mediasında sensasiyaya səbəb olası xəbər yayıldı. Məlumatı yayanlar NTV plyus kanalının əməkdaşları oldu. Şərhçi-jurnalist Aleksey Andronov 2007-ci ildə "Lokomotiv"in baş məşqçisi işləmiş Anatoli Bışovetsin futbolçularından əsas heyətə düşmələrindən ötrü pul alması məlumatını ortaya atdı. Baş məşqçini həmçinin danışılmış oyunlarda da günahlandırdılar. Bışovets təbii olaraq bütün deyilənləri rədd etdi. Lakin nə onun özü, nə də klubun rəhbərliyi məhkəməyə müraciət etmək istəmədilər. Eyni zamanda "Lokomotiv" komandası telekanaldan üzr istəməyi də tələb etmədi. Bu məlumatı azarkeşlər uzun müddət müzakirə etdilər. Çoxları belə qənaətə gəldilər ki, deyilənlər həqiqətə uyğun ola bilər.

2010-cu ildə Rusiya mediasında maraq doğuran daha bir məlumat yayıldı. Ramenskin "Saturn" komandasının müdafiəçisi, yığmanın da əsas oyunçularından biri olan Vadim Yevseyev "Sovetskiy Sport" qəzetinə bildirdi ki, daxili çempionatda ona oyunu satmaq təklif olunmuşdur. Futbolçu əvvəlcə bu təklifin hansı komandadan gəldiyini demədi. Məsələ Rusiya Futbol İttifaqının prezidenti Serqey Fursenkoya qədər gedib çatdı. Onun cavabı belə oldu ki, bu cür söhbətləri ciddi hesab etmir. Bundan sonra Yevseyev təkrar jurnalistlərə müsahibə verərək dedi ki, danışılmış oyun Krasnodarın "Kuban" komandası ilə olmalı idi. O, əlavə olaraq bildirdi ki, hüquq-mühafizə orqanlarının araşdırma aparmasına da hazırdır və bunu vacib hesab edir. Fursenko isə bu dəfə jurnalistlərin suallarını qısaca belə cavablandırdı ki, o, keçmişə nəzər salmaq istəmir, gələcək işlərlə məşğuldur. Göründüyü kimi futbolçu ciddi fakt üzrə ifadə verməyə hazır olduğunu təkidlə desə də, səlahiyyətli şəxslərdən heç kim yüksək səviyyədə danışılmış oyun cəhdini araşdırmaq istəmədi.

Vaxtı ilə nadir hallarda "Tottenhem"in heyətinə düşən Roman Pavlyuçenko sonradan jurnalistlərə bildirmişdi ki, məşqçi Harri Rednapp hər oyuna meydana çıxmağına ondan pul tələb edirdi.

Rusiyanın sabiq baş məşqçisi Quus Hiddink yığmanın dünya çempionatının keçid matçlarında Sloveniya komandasına məğlub olmasından sonra görün özünə necə "haqq qazandırmışdı": "Sloveniyalılar öz qapılarından top buraxmaları üçün bizdən külli miqdarda pul istədilər".

Son iki mövsümdə "Real", axırıncı mövsümdə isə "Atletiko" kral kuboku oyunlarında qəsdən uduzmaqla mübarizəni dayandırdılar. Hər iki komanda ölkə çempionatında və ÇL-da titul qazanmağı daha önəmli hesab etdilər.

Maraqlıdır ki, elə hallara təsadüf olunur ki, avtoqollar da danışılmış oyunlara xidmət edir. Yəni, qeydə alınmış avtoqol heç də həmişə təsadüfi olmur. Nəticə şübhə doğurmasın deyə nadir hallarda da olsa, belə üsullara əl atılır. Futbolçu özünü elə göstərir ki, avtoqola üzülür. Amma əslində belə deyil. Bəzi hallarda belə



"uğursuzluğun" arxasında başqa məsələlər durur. Əlbəttə, şübhələr yaransa da, konkret faktın təsdiqi mümkün olmur.

Bəzən futbolçular bilərəkdən sarı və ya qırmızı kart alırlar. Məqsəd vacib əhəmiyyət kəsb edən növbəti oyuna çıxmamaq, eləcə də davam edən oyunda komandanı azlıqda qoymaqdır. Rəqib komandaya xal lazım olanda, "belə addımlar" atılır. Futbolçuların bu əməllərindən bəzən baş məşqçinin xəbəri olur, yəni tapşırıq onun özündən gəlir, bəzən isə yox.

Bəzi hallarda "ələ alınmış" hakimin qəsdən sarı və ya qırmızı kart göstərməsi də istisna olunmur. Cərimə meydançasında müdafiə olunan komandanın üzvü də bilərəkdən əlini topa toxundurmaqla penaltiyə "səbəb ola bilər".

Komandanın əsas oyunçularının guya məşq zamanı zədələnməsi, yaxud təqvim oyunundan əvvəl "qəflətən xəstələnməsi" hallarına da rast gəlinir. Futbolçuların qeyri-etik davranışı bəzən intizam işi açılması ilə nəticələnir. Lakin nəyisə sübut etmək mümkün olmur. Ya da sadəcə olaraq buna elə də cəhd edilmir.

### Bir Əhməd Ələsgərov vardı...

Yeri gəlmişkən burada mövzuya uyğun olaraq vaxtı ilə rəhmətlik Əhməd Ələsgərovla bağlı sovet futbolu dönəmində gəzən söz-söhbətləri də yada salmamaq olmur.

Ə.Ələsgərovu tanıyanlar,o dövrün azarkeşləri və futbol mütəxəssisləri haqlı olaraq onu adi bir məşqçi kimi qəbul etməyiblər. Elə mən özüm də. Onu digər məşqçilərdən fərqləndirən bir sıra xüsusiyyətləri həmişə mənim diqqətimi cəlb edib. Yeri gələndə müəmmalı təsir bağışlayan Əhməd Ələsgərovdan əslində müasirləri "baş açmırdı". Oyunun nəticəsini özünün yeganə məqsədi hesab edən bu mütəxəssis istəyinə nail olmaqdan ötrü mümkün olan bütün imkan və üsullardan istifadə edirdi. Hələ o vaxtlar belə söz-söhbətlər yayılırdı ki, öz məqsədi yolunda onun lazım gələndə danışılmış oyunlara soyuqqanlı, "səliqəli" şəkildə, yüksək bacarıqla "əl atarmış".

SSRİ dövründə belə addımların necə riskli, hətta təhlükəli olduğunu təsəvvür etmək heç də çətin deyildir. Müasir dövrdə belə hallar adiləşib. Deməli, belə çıxır ki, Əhməd Ələsgərov zamanı qabaqlayıbmış...Görünür, bu da bir məharətdir, xüsusi qabiliyyətdir...Görəsən deyilənlər doğru idimi? Bəs, Əhməd Ələsgərov bunu necə həyata keçirirdi? Hansı yollarla məqsədinə nail olurdu? Axı, o dövrdə hələ sponsor anlayışı yox idi. Sovet İttifaqı kimi bir ölkədə bu suallara cavab tapmaq müşkül məsələ idi. Kommunist rejimi dövründə kimin cəsarəti çatardı ki, bu sualları qabartsın. Ümumiyyətlə, bu işlərə "baş qoşmaq" ağlasığmaz məsələlər idi.

Ə.Ələsgərovun bu istiqamətdə əsas "gedişi" oyunun hakimindən penalti "əldə etmək" bacarığı idi. Rəhmətlik Rafiq Əlizadəni yada salaq. O dövrün azarkeşləri yəqin ki, bu özünəməxsus hücumçunun oyun xüsusiyyətlərini yaxşı xatırlayırlar. Əlizadənin yıxılıb penalti qazanması axırda getdi çıxdı yuxarı idman dairələrinə. "Sovetskiy sport" qəzeti məsələyə münasibət bildirdi. Sonra SSRİ futbol federasiyası işə qarışaraq yaranmış vəziyyəti müzakirəyə çıxardı. Əvvəlcə hakimlərə tapşırıldı ki, Əlizadə yıxılanda bir daha penalti verilməsin (!). Daha sonra başqa sərt tədbirlər görüldü.

Ə.Ələsgərovun Ukrayna ilə də sıx bağlılığı olub. Odessada çalışdığı illərdə də onun adı danışılmış oyunlarda hallanıb. Yaxşı Bakıdakı məşqçilik fəaliyyəti dövründə sızan söz-söhbətlərin hardasa izahını tapmaq mümkündür. Bəs, Ukraynada o, deyilənlərə necə nail olurdu? Bax, bu sualların cavablarını tapmaq çətindir. Sirr deyildi ki, Əhməd Ələsgərovun keçmiş SSRİ-nin bir çox məkanında sıx ələqələri, yaxın dostları var idi. Ancaq yalnız bu amillər məqsədə çatmaq




üçün kifayət edərdimi?!

Hər bir halda Azərbaycanın futbol tarixində unudulmaz mütəxəssis möhtəşəm iz qoymuşdur. O dövrün futbol adamları, azarkeşlər bu gün də onu sevə-sevə xatırlayırlar. Onun yenidən Bakıya qayıdışını mən də yaxşı xatırlayıram. Həmin illər mən həmişə stadionda olardım. Əhməd Ələsgərov daim qara eynəkdə stadiona qədəm basardı. Dərhal da azarkeşlər "Luis Menotti" - deyə qışqıraraq onu alqışlayardılar. Əhməd Ələsgərov harada işləməyindən asılı olmayaraq həmişə ayağı düşərli, uğur gətirən məşqçi olub. Ən azından təkcə elə bu amil onun daim yaddaşlarda qalmasına kifayət edib. Heç kim onun maraqlı, bir qədər qeyri-adi, bir az da müəmmalı şəxsiyyət olduğunu inkar edə bilməz. Təbii ki, burada söhbət o dövrü yaşamış və yaşayan futbol həvəskarlarından gedir.

Allah Əhməd Ələsgərova rəhmət eləsin...

### Bəs qardaş Türkiyədə və bizdə necə... ?

Mövzu ilə bağlı Türkiyə futboluna qısaca toxunmaqla kifayətlənmək istərdim. Burada vaxtı ilə "Fənərbağça" klubunun cəzalandırılması epizodunu yada salmaq yerinə düşər. UEFA 2010-2011-ci illər mövsümündə "Fənərbağça"nın bəzi danışılmış oyunlarda iştirak etdiyini bildirərək, bu komandanı iki il Avropa kuboklarından kənarlaşdırılması ilə bağlı qərar vermişdi. Türkiyə Futbol Federasiyası və klub rəhbərliyi qərarın ləğvi üçün çox əziyyət çəkməli oldu. Rəsmi şəxslər şikayət ərizəsini Beynəlxalq Arbitraj məhkəməsinə göndərdikdən sonra da UEFA nəticəni gözləmədən israrla klubun cəzasının təsdiqlənməsini tələb edirdi. Əvvəlcə UEFA-nın qərarı BAM-si tərəfindən donduruldu. Sonradan məsələyə İsveçrədə baxılarkən kompromis razılığa gəlinməsi variantı təmin olundu.

Ümumiyyətlə, bir vaxtlar Avropada azarkeşsiz oynamaq cəzasına ən çox məruz qalan Türkiyə klubları olub. Məsələn, 2013-cü ildə "Beşiktaş" komandasına ölkə federasiyası tərəfindən dörd oyunluq azarkeşsiz oynamaq cəzası verilmişdi.

Əlbəttə, Türkiyə çempionatında futbola xələl gətirən, gözəl oyunlara kölgə salan, kifayət qədər anti-futbol epizodlarına toxunmaq olar. Azarkeşlər arasındakı dava-dalaşı, qarşılıqlı təhqiri, hətta bıçaqlanma hadisələrini xatırlayan futbol həvəskarları yəqin ki, çoxdur. Lakin oxuculara təqdim olunan bu yazıda həmin epizodlarla əlaqədar geniş şərhə lüzum görmürəm.







### Sifarişlə gətirilmiş bayquş

Anti-futbol söhbətləri Azərbaycan futbolundan da yan keçmir. Xüsusən, "Xəzər-Lənkəran" və "Neftçi" komandaları arasındakı çempionluq rəqabəti dövründə rastlaşdığımız xoşagəlməz epizodları yəqin ki, azarkeşlər yaxşı xatırlayırlar. Elə iki epizodu yada salsam, məncə kifayətdir. T.Bəhramov adına Respublika stadionunun girişindəki reklam lövhəsində bu komandaların oyunundan öncə "Xəzər-Lənkəran"nın ardıcıl olaraq iki dəfə gerb-plakatının cırılması xeyli müzakirələrə səbəb oldu. Hərçənd ki, stadionun rəhbərliyi tərəfindən bu problem dərhal aradan qaldırıldı. Vəziyyəti nizamlamaq üçün bildirildi ki, ikinci dəfə güclü külək əsməsi səbəbindən plakat zədələnibmiş.

Yenə də Bakıda növbəti oyun ərəfəsində belə söz-söhbət dolaşdı ki, son illərin barışmaz rəqibləri olan bu komandaların görüşündə çılğın azarkeşlər stadiona Rusiyanın Kemerovo vilayətindən sifarişlə gətirilmiş qiyməti çox baha olan bayquş buraxmaq niyyətindədirlər. Bu xəbər də maraqla gözlənilən qarşılaşmaya xələl gətirməyə bilmədi.

O vaxtlar bizim hakimlər barədə də sensasiyalı açıqlamalar yayılırdı.Etiraf edək ki, həmin dövrdə hakimlərin çoxunun idarəçiliyi aşağı səviyyədə idi. Ona görə də klub rəsmiləri hakimlərin idarəçiliyindən narazı qalırdı ki, bu da əlavə söz-söhbətə səbəb olurdu. Ancaq mən bu fikirlərəyer ayırmağa ehtiyac görmürəm.

*(ardı var)*



Dünya-idmanı



## Almanlar ingilisləri qabaqladı

Qadın velosipedçilərdən ibarət Almaniya yığması Tokio Olimpiadasında dünya rekordu qırıb. Almanlar buna komanda yarışlarının təsnifat mərhələsində imza atıb.

Françiska Brausse, Liza Brennauer, Liza Klayn və Mik Kreyqerdən ibarət komanda 4000 metrlik məsafədə 4.07.307 nəticəsini göstərib. Buna qədər dünya rekordu Rio-2016-da İngiltərə yığmasına (4.10.236) məxsus idi.



Yunanıstan Olimpiya Komitəsi həmin qadın idmançının adını

## *Tokio-2020-nin daha bir idmançısı COVİD-19-a yoluxdu*

Tokio-2020 Yay Olimpiya Oyunlarında Yunanıstanın sinxron üzgüçülük komandasının üzvlərindən birinin koronavirus testi müsbət nəticə verib. açıqlamayıb. Bildirilib ki, üzgüçü karantinə alınıb. Digər idmançıların testi mənfi çıxıb. Onlar Olimpiya Kəndində intensiv nəzarət altında qalacaqlar.

## Beysbolçular Olimpiya kəndindəki çarpayını sındırdılar

İsrail millisinin beysbolçuları Yay Olimpiya Oyunlarının keçirildiyi Tokiodakı Olimpiya Kəndində idmançılar üçün hazırlanmış xüsusi çarpayılardan birini sındırıblar. Buna idmançıların çarpayı üzərində atılıb-düşmələri səbəb olub. Əvvəlcə Ben Vaqner karton yatağın dözümlüyünü yoxlamaq qərarına gəlib və bununla bağlı çəkdiyi videonu tik-tok sosial şəbəkəsinə yükləyib. Ardınca isə beysbolçunun komanda yoldaşları çarpayının üzərinə çıxaraq, eyni vaxtda atılıb-düşməyə başlayıblar. Nəticədə 9 idmançının ağırlığına tab gətirməyən çarpayı sınıb.

Qeyd edək ki, 2,1 metr uzunluğunda çarpayılar 200 kq çəkiyə davamlı hazırlanıb.




## Şevçenko Ukrayna millisindən gedir

Futbol üzrə Ukrayna millisinin baş məşqçisi Andrey Şevçenko vəzifəsini tərk edir. Bu barədə 45 yaşlı mütəxəssisin özü məlumat yayıb. A.Şevçenko bildirib ki, millinin baş məşqçisi kimi 5 illik müqaviləsi bu gün başa çatır və o, yenidən bu postu tutmayacaq: "Hesab edirəm ki, bu 5 ildə müasir futbolda oynaya bildiyimizi sübut edə bildik. Ukrayna Futbol Assosiasiyasına, mənimlə çalışan hər kəsə, eləcə də millinin üzvlərinə, azarkeşlərimizə sonsuz təşəkkür edirəm. Uğurlar!", - deyə qeyd edib.

## Çempionlar Liqasının ən yaxşı qolu müəyyənləşdi

UEFA Çempionlar Liqasının 2020-2021-ci il mövsümünün ən yaxşı qolu müəyyənləşib. Məlumat UEFA-nın rəsmi "Twitter" səhifəsində dərc edilib. Beləliklə, azarkeşlərin səsvermısinə əsasən, Portuqaliyanın "Portu" klubunda çıxış edən iranlı hücumçu Mehdi Tareminin Çempionlar Liqasının 1/8 final mərhələsinin cavab matçında "Çelsi"nin qapısına vurduğu dəqiq zərbə mövsümün ən baxımlı qolu elan edilib.



## *Futbolçular terrorun qurbanı oldular*

Somalinin Kismayo şəhərində futbolçuları daşıyan avtobus partladılıb. Terror hadisəsi nəticəsində 4 nəfər ölüb, 10 nəfər isə yaralanıb. Partlayışa yola qoyulmuş partlayıcı maddənin işə salınması səbəb olduğu iddia edilir.

**olimpnews.az - sizin saytınız**






## Macarıstan Qran-prisində kütləvi qəza

Formula-1 üzrə Macarıstan Qran-prisində kütləvi qəza baş verib. "Hunqarorinq" transındakı yarışın startındakı insidentə "Mercedes" pilotu Valtteri Bottas səbəbkar olub. O, mübarizəyə ləngidikdən sonra əyləci gec basıb və "Maklaren" pilotu Lando Norrisin bolidinə çırpılıb. Bunun ardından Norrisin avtomobili Maks Ferstappenin idarə etdiyi "Red Bull"a dəyərək onu kənara atıb. Bottasın öz bolidi isə Serxio Peresin avtomobilinə tərəf uçub.

Bu qrupdan bir qədər aralıda gələn Lens Stroll da sürəti azalda bilməyib. Onun "Aston Martin"i Şarl Leklerə məxsus "Ferrari"yə dəyib.

Strollun komanda yoldaşı Sebastyan Fettelin adı isə Macarıstan Qran-prisinin yekun protokolundan çıxarılıb. Beynəlxalq Avtomobil İdmanı Federasiyasının texniki komissarı finişdən sonra onun avtomobilindən yanacaq nümunəsi götürə bilməyib. Qaydalara görə, yanacaq nümunəsi bir litr təşkil etməlidir. Komissarlar isə cəmi 300 millilitr nümunə götürə biliblər.

Nəticədə Fettel Macarıstan Qran-prisində ikinci pillədən məhrum edilib. Onun yerinə "Mercedes" pilotu Lüis Hemilton yüksəlib. Qalib adını "Alpine" pilotu Esteban Okon qazanıb. Üçüncü yer isə Karlos Saynsa ("Ferrari") qismət olub.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19